


# Prezidentin Qarabağa səfərləri qəlblərdə sevinc, könüllərdə fərəh yaradır

**"44 günlük Vətən müharibəsində şanlı Ordumuz tərəfindən işğaldan azad olunan ərazilərə yeni nəfəs gəlib. 30 il erməni işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur, yeni görkəm alır. Düşmənin Yer üzündən sildiyi şəhər və kəndlərimiz ən müasir şəkildə yenidən tikilir, keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı reallaşır. Bütün bunlar hər bir Azərbaycan vətəndaşını, xüsusilə qarabağlıları sevindirir, qürurlandırır".**

Bu fikirlər Ağdam rayon ziyalısı Şamil Əhmədovun işğaldan azad olunmuş ərazilərin inkişafı və Böyük qayıdışla bağlı məqaləsində yer alıb. AZƏRTAC məqaləni təqdim edir.

"44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra bu gün dövlətimizin əsas prioritet məsələlərindən biri işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması, infrastruktur layihələrinin icrası, kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsidir. İşğaldan azad olunmuş ərazilərimizdə Prezident İlham Əliyevin müvafiq sərəncam və tapşırıqlarına əsasən, quruculuq-bərpa işləri uğurla davam etdirilir. Düşmən tapdağından azad olunmuş Ağdam rayonunda infrastruktur layihələrinin uğurla icrası buna bariz nümunədir.

Dövlət başçısı mütəmadi olaraq Qarabağa və Şərqi Zəngəzura səfərlər edir, yaşayış məntəqələrinin və digər obyektlərin təməlini qoyur, həyata keçirilən tikinti-quruculuq işləri ilə maraqlanır, açılışlar edir. Prezidentin bu səfərləri azad olunmuş torpaqlarımıza Böyük qayıdışı sürətləndirir, qəlblərdə sevinc, fərəh hissi yaradır.

Bu günlərdə, daha dəqiq desək, mayın 10-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna növbəti səfərləri və bu səfərin Ulu Öndərin doğum gününə təsadüf etməsi biz ağdamlılara həm sevinc, həm də böyük qürur hissi yaşatdı. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ulu Öndər Heydər Əliyevin doğum gününü ağdamlılarla birgə qeyd etməsi tarixi hadisə oldu. Eyni zamanda Prezident İlham Əliyevin Kəngərli kəndinin, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin və Ağdam Muğam Mərkəzinin açılış mərasimlərində iştirakı və ağdamlılarla səmimi söhbətləri həmin tarixi hadisənin unudulmaz səhifəsi idi. Prezidentin Ağdam Muğam Mərkəzinin açılışında verdiyi mesajlar, bəyanatlar ağdamlılar tərəfindən çox böyük rəğbət və məhəbbətlə qarşılanıb.

Azərbaycan yalnız öz iqtisadi resursları hesabına, heç bir beynəlxalq təşkilatdan kömək almadan Qarabağı və Şərqi Zəngəzuru yenidən qurur, insanlar doğma torpaqlarına geri qayıdırlar, "məcburi köçkün" ifadəsi artıq tariximizdən silinir. Dövlətimiz işğaldan azad edilmiş ərazilərdə yeni şəhərsalma təcrübəsini nümayiş etdirir. Ağdam şəhərinin timsalında bunu aydın şəkildə görürük. Ağdam Prezidentimizin rəhbərliyi ilə xarabalıqlardan baş qaldırıb ucalır, yenidən ağ günlərinə qovuşur. Qarabağımızın, Ağdamımızın inkişafını görmək, azad, firavan günlərinin başlamasına şahidlik etmək qalib ölkənin vətəndaşı kimi bizi qürurlandırır".

Azərbaycan.- 2025.- 14 may (№ 98).- S.4.